Səh. 2 Ramazandan geriyə qalanlar – Hacı Bəkiroğlu
Səh. 3 Sərhədlərimizin anatomiyası, patalogiyası və gigiyenası – Esmira Ələkbərli
Səh. 5 Varlıq içində yoxluq – Validə Fətullayeva
Səh. 6 “Koroğlu”nun əxlaqi-estetik əqidəsi – Elizbar Cavelidze
Səh. 3 Bu dünyadakı izin axirət sərmayəsi olsun – Lamiyə Hacıyeva
Səh. 4 NOYABRIN 1-NƏ QƏDƏR 6 YAŞI TAMAM OLAN UŞAQLAR DA BİRİNCİ SİNFƏ QƏBUL OLUNACAQLAR
Səh. 7 Niderland – pərdə arxasındakı gerçəklər – Afiq Muxtaroğlu

İCTİMAİ QƏZET ❁ yeniyolqazeti@gmail.com ❁ “იენი იოლი” საზოგადოებრივი გაზეთი ❁ HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

30 APREL
2023-CÜ İL
№ 008 (179)

# Yeni YOL

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.

## BAŞ NAZİR BRÜSSELDƏ NATO-NUN BAŞ KATİBİ İLƏ GÖRÜŞÜB




“Gürcüstan NATO-nun yaxın tərəfdaşıdır”. Bunu NATO Baş katibi Yens Stoltenberq Brüsseldə Gürcüstan Baş naziri İrakli Qaribaşvili ilə mətbuata birgə açıqlaması zamanı deyib.

“Gürcüstan NATO-nun yaxın tərəfdaşlarından biridir. Biz Gürcüstanın suverenliyini və ərazi bütövlüyünü dəstəkləyirik. Rusiyanı Gürcüstanın ərazi bütövlüyünə hörmət etməyə və tanımağa çağırırq.

Gürcüstan NATO-nun siyasi və praktiki dəstəyinə güvənə bilər. Biz Gürcüstanın Avro-Atlantik məkana inteqrasiya istəyini qiymətləndiririk. Gürcü xalqı çiçəklənən, demokratik və Avro-Atlantik məkana inteqrasiya olunmuş bir ölkə istəyir. Biz bu istəklərin yerinə yetirilməsində sizə dəstək verəcəyik”, - deyə Stoltenberq bildirib.

Gürcüstanın Baş naziri İ.Qaribaşvili isə çıxışında bildirib ki, Rusiyanın Ukraynada apardığı müharibə Avropanın təhlükəsizlik arxitekturasına ciddi təhdiddir: “Bu müharibə həm Avropa üçün, həm Gürcüstan üçün, həm də regionumuz üçün çətinliklər yaradıb”.

Hökumət başçısı NATO ilə siyasi dialoqu və praktiki əməkdaşlığı bütün istiqamətlərdə daha da dərinləşdirməyə hazır olduqlarını deyib, Gürcüstanın özünün davam edən Rusiya işğalı problemi olduğunu vurğulayıb.

“Gürcüstan etibarlı tərəfdaşlardan biri kimi alyansın missiyalarına töhfə verməyə dair yaxşı təcrübəyə malikdir. Biz Avro-Atlantik sülh və təhlükəsizliyə töhfə veririk və bu, hər kəsə məlumdur”, - İ.Qaribaşvili bildirib.

O, Avro-Atlantik inteqrasiyanın Gürcüstanın xarici siyasətinin əsas prioriteti olaraq qaldığını deyib.

## GÜRCÜSTAN ƏHALİSİNİN SAYI AÇIQLANIB



Gürcüstan Milli Statistika İdarəsinin hesabatına əsasən, 2023-cü il 1 yanvar tarixində Gürcüstan əhalisinin sayı 3 736 400 nəfər təşkil edib. Bildirilib ki, bu il əhalinin sayı illik müqayisədə 1,3 % artıb.

Statistikaya əsasən, bu ilin 1 yanvarında Gürcüstan əhalisinin 60,4 %-i şəhərlərdə, ümumi əhalinin üçdə biri isə paytaxt Tbilisidə yaşayır.

Gürcüstanda azərbaycanlıların kompakt yaşadığı Kvemo-Kartli regionunda yaşayan əhalinin sayının isə 442,8 min nəfər olduğu qeyd edilib. Bildirilib ki, bunun 197,5 min nəfəri şəhərlərdə, 245 min nəfəri isə kəndlərdə məskunlaşıb.

Statistikaya görə, 0-14 yaş aralığındakı vətəndaşlar ölkə əhalisinin 20,7 %-ni, 15-64 yaş aralığındakılar 63,8 %-ni, 65 yaş və yuxarı isə əhalinin 15,6 %-ni təşkil edir.

Ölkə əhalisinin 52 %-ni qadınlar, 48 %-ni isə kişilər təşkil edir.

Məlumata əsasən, cinsi nisbətə gəlincə, ölkədə hər 100 qadına 92 kişi düşür.

Gürcüstanda orta ömür uzunluğu 73,7 yaşdır. Bu göstərici kişilərdə 69,4, qadınlarda isə 78,1 yaşa bərabərdir.

## TÜRKİYƏ PREZİDENTİ GÜRCÜSTANLI XİLASEDİCİLƏRİ MÜKAFATLANDIRIB

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Gürcüstanın xilasedici dəstəsinə rəhbərlik edən Gürcüstan Daxili İşlər Nazirliyinin Fövqəladə Halların İdarəetmə Xidmətinin Yanğından Mühafizə və Xilasetmə İdarəsinin rəis müavini, mülki təhlükəsizlik polkovniki Mamuka Sefiaşviliyə xüsusi mükafat təqdim edib.

Gürcüstanlı xilasedicilər Türkiyənin Adıyaman və Antakya şəhərlərində baş vermiş zəlzələnin fəsadlarının aradan qaldırılmasında iştirak etdiklərinə görə ən yüksək fədakarlıq ordeni ilə təltif ediliblər.

Prezident R.T.Ərdoğan xilasetmə əməliyyatında iştirak edən xilasedicilərə göstərdikləri köməyə və fədakarlığa görə




şəxsən təşəkkür edib.

Qeyd edək ki, Baş nazir İrakli Qaribaşvilinin qərarı ilə Gürcüstandan 200 nəfər xilasedici Türkiyəyə yollanaraq zəlzələ ərazilərində 18 gün ərzində xilasetmə əməliyyatları həyata keçirmişdilər.

## RUSİYA GÜRCÜSTANA 129 MİLYON AVRO TƏZMİNAT ÖDƏMƏLİDİR



Avropa İnsan Haqları Məhkəməsi (AHİM) “Gürcüstan Rusiyaya qarşı” işi üzrə yekun qərarını açıqlayıb. Strasburq məhkəməsi iş üzrə Rusiyanın Gürcüstana 129 milyon avro təzminat ödəməsinə hökm edib.

Qərara əsasən, Rusiya 2008-ci il Avqust müharibəsi zamanı Gürcüstanın işğal altındakı Cənubi Osetiya bölgəsinin kəndlərində öldürülən mülki şəxslərə, “bufer zona”da evlərin qarət edilməsi, yandırılması, etnik gürcülərin məcburi saxlanılması və onlara qarşı yol verilmiş alçaldıcı davranışlara görə 3,25 milyon avro ödəməlidir.

Məhkəmənin qərarına görə, Rusiya eyni zamanda Cənubi Osetiya qüvvələri tərəfindən qeyri-insani davranışlara, məcburi saxlanılmaya məruz qalmış azı 166 nəfərə dəymiş mənəvi zərərə görə isə 2 milyon 697 min 500 avro ödəməlidir.

Bundan başqa, Sxinvalidə Cənubi Osetiya qüvvələri tərəfindən müharibə əsirlərinə verilmiş işgəncələrə görə 640 000 avro ödəməlidir.

Rusiya eyni zamanda Cənubi Osetiya və Abxaziyadakı evlərinə qayıtmalarına inzibati qaydada mane olunan gürcü əsilli 23 min nəfərə dəyən mənəvi zərərə görə isə Gürcüstana 115 milyon avro ödəməlidir.

Həmçinin toqquşmaların aktiv mərhələsi zamanı baş vermiş ölümlərlə bağlı Gürcüstanın effektiv və adekvat təhqiqatlar aparmaq öhdəliyini yerinə yetirə bilməməsi səbəbi ilə mənəvi ziyan dəymiş 412 nəfərə görə isə 8 milyon 240 min avro ödənməlidir.



## RAMAZANDAN GERİYƏ QALANLAR

Hacı Bəkiroğlu
hacihaciyev@hotmail.com

Saniyələri dəqiqələrə, dəqiqələri saatlara, saatları da günlərə calayıb builki Ramazan ayını da beləcə yola saldıq. Bir gün öncədən təravih namazı ilə başlayıb sahurlarla, iftarlarla davam etdik. Çox gözəl! Allah qəbul eləsin! Bəs Ramazan bitdikdən sonra nə etdik? Namazlarımızı, ibadətlərimizi, dualarımızı da bu Ramazan ayı ilə birlikdə sonamı çatdırdıq, yoxsa gələn Ramazana qədər davam etdirməyə, Allahın əmrlərinə uyğun gəlməyəmi söz verdik?

Bəli, Ramazan bitdi, ancaq bizlərə bir məktəb olaraq bir çox gözəl xüsusiyyətlər öyrədərək getdi. Təravihlərlə namaz sevgisini, fitrə və sədəqələrlə ehtiyac sahiblərinə dəstək olmağı, edilən yardımlarla paylaşmağı, iftar və sahurlarla səbr etməyi öyrətdi. Qeybətdən, dedi-qodudan, başqalarını incitməkdən bizləri uzaqlaşdırdı. Ərəbcə oxumağı bacaranlarımıza bol Quran oxuma fürsəti, ərəbcə bilməyənlərə Quranın tərcüməsini və ya məalını oxuma şansı verdi. Məscidlərdə və ya televizorda dinlədiyimiz xoş söhbətlərlə ruhumuzu fərəhləndirdi. Təşkil etdiyimiz iftar süfrələri ilə ruzimizə, etdiyimiz sədəqələrlə malımıza bərəkət qatdı.

Bəs biz bu sadaladığımız gözəllikləri Ramazanla sərhədləyib sonrakı həyatımıza nə şəkildə davam etdik? Ramazanın bizə verdiyi dərsləri elə sinifdəcə unudub öz bildiyimiz köhnə əməllərləmi davam etdik, yoxsa bu məktəb ürəyimizdə, qəlbimizdə bir iz buraxdımı? Əgər bizdə bir iz buraxdısa, özümüzə bir dərs çıxarda bildiksə, nə xoşbəxt adamlarıq. Yox, sadəcə hamı oruc tutur deyə biz də oruc tutduqsa, dəbə uymaq məqsədilə bu yola girdiksə gecəmizi də, gündüzümüzü də ziyan etmişik deməkdir. Çünki həzrət Peyğəmbər buyurur: "Əməllər niyyətlərə görədir". Yəni ki, niyyətin xalisdirsə o zaman əməlinin qarşılığı olaraq savabını da alarsan. Yox, əgər yuxarıda da vurğuladığım kimi, trendə uymağa çalışdınsa, demək ki, gecələri yuxusuzluğun, gündüzləri də aclığın boşuna olub.

Ramazan, əslində, insanın özünü hesaba çəkməsi üçün verilən bir fürsət ayıdır. Bu müddət ərzində tutulan orucla insan acların halını anlamırsa, onlara dəstək olmağa çalışmırsa, demək ki, o insan hələ də Ramazanın mahiyyətini anlamayıb.

Bəs Ramazan məktəbindən almağımız lazım olan dərslər nələrdir?

Oruc nemətlərin qədrini bilməyi və qəlbdəki duyğuları dərinləşdirər. Belə ki, hər gün rahatca yeyib-içilən nemətlərdən günün müəyyən bir qismində məhrum qalmaq belə insana öz acizliyini xatırladır. Yəni insanın Allaha möhtac olduğunu göstərir.

Oruc insana nəfsin arzu və istəklərindən uzaqlaşıb mənəvi halının yüksəlməsinə köməkçi olur. Oruc insana gözəl əxlaq aşılayar. İnsanı yalandan, zinadan, oğurluqdan, pis sözlərdən uzaqlaşdırar. Oruc insana təvazökar olmağı öyrədir.

Məhz elə bu səbəblədir ki, Ramazan ayına on bir ayın sultanı adı verilmişdir. Min aydan daha xeyirli olan Qədr gecəsi də elə bu aydadır.

Qısacası, bu ayda edilən ibadətləri sadəcə bu ayla sərhədləməyib ömür həyatında yayaraq yaşayacaq olan insanlar Allahın və Peyğəmbərinin razı olacağı insanlardan olarlar inşallah.

Allah hər birimizi ömrünü Ramazan edən insanlardan etsin! Amin!

## AZƏRBAYCANIN GÜRCÜSTANDAKI SƏFİRİ GÜRCÜSTAN GƏNCLƏRİNƏ YARDIM VƏ MAARİFLƏNDİRMƏ DƏRNƏYİNİN TƏLƏBƏ YATAQXANASINA BAŞ ÇƏKİB



Azərbaycanın Gürcüstandakı səfiri Faiq Quliyev Gürcüstanın müxtəlif universitetlərində təhsil alan azərbaycanlı tələbələrlə görüşüb.

Görüş aprelin 19-u Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Dərnəyinin (GYMD) nəzdindəki "Tbilisi oğlanlar yataqxanası"nda baş tutub.

Görüş iştirakçıları şəhidlərimizin xatirəsini bir dəqiqəlik sükutla yad ediblər.

GYMD sədri Musa Hacıyev səfirə yataqxanada məskunlaşmış tələbələrlə bağlı məlumat verib. Bildirib ki, Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Dərnəyinin bu yataqxananı yaratmaqda məqsədi Gürcüstanın bölgələrindən olan, Tbilisidə normal kirayə ev tutmaq imkanı olmayan və ya sosial cəhətdən aztəminatlı ailələrdən olan tələbələrə yardım göstərməkdir. Hazırda yataqxanada 67 tələbə yaşayır. Onlara rahat yaşamaları, təhsil almaları üçün hər cür şərait yaradılıb. Tələbələr hər gün 3 dəfə isti yeməklə də təmin olunurlar. Hər bir tələbə ayda bütün xidmətlər üçün cəmi 250 lari ödəyir.

Tələbələrə asudə vaxtlarının səmərəli təşkili məqsədilə Azərbaycandan, Türkiyədən gələn və yerli mütəxəssislərlə görüşlər, dəyirmi masalar təşkil olunur. Onlara boş vaxtlarda dini dərslər də keçirilir.

Səfir Faiq Quliyev Azərbaycan dövlətinin Gürcüstandakı azərbaycanlılara göstərdiyi diqqət və qayğı barədə məlumat verib. Bildirib ki, Azərbaycan dövlətinin, Heydər Əliyev Fondunun, SOCAR şirkətinin və digər Azərbaycan şirkətlərinin dəstəyi ilə Gürcüstanda məktəblər, uşaq bağçaları, idman kompleksləri və başqa sosial obyektlər tikilərək istifadəyə verilir, bəziləri isə əsaslı təmir olunur. Ümumiyyətlə, SOCAR tərəfindən Gürcüstanda sosial layihələrə 70 milyon dollara yaxın vəsait ödənilib. Hər il 1500-dən çox tələbənin təhsil haqqı ödənilir. SOCAR bu ildən həmin tələbələrin təhsilə marağını artırmaq üçün yeni layihə hazırlayıb. Fəal və əlaçı tələbələrə mükafatlar veriləcək, tələbələr Gürcüstandakı Azərbaycan şirkətlərində təcrübə keçəcək, ali məktəbləri bitirən gənclərin işlə təmin olunmalarına dəstək göstəriləcək.

Səfir Gürcüstanda yaşayan azərbaycanlıların Birinci Qarabağ və 44 günlük Vətən müharibəsi zamanı göstərdiyi dəstəyi xüsusi qeyd edib. Bildirib ki, Azərbaycan dövləti Gürcüstandan olan şəhid və qazi ailələrinə yüksək qayğı göstərir. Səfirlik şəhidlərlə bağlı sənədli film, kitab hazırlayıb. Səfirlik əməkdaşları həmin ailələri mütəmadi olaraq ziyarət edir, onların qayğıları ilə maraqlanır, yardım göstərirlər.

Sonra səfir tələbələri maraqlandıran sualları cavablandırıb.

Sonda tələbələr üçün iftar süfrəsi açılıb.

## AZƏRBAYCAN SƏFİRİ GÜRCÜSTANIN YENİ TƏHSİL NAZİRİ VƏ TDU-NUN YENİ REKTORU İLƏ GÖRÜŞÜB



Azərbaycanın Gürcüstandakı səfiri Faiq Quliyev Tbilisi Dövlət Universitetində olub, yeni təyin olunmuş rektor Caba Samuşia ilə görüşüb.

Aprelin 18-i baş tutan görüşdə Azərbaycan və Gürcüstan arasında təhsil sahəsində əlaqələr diqqət mərkəzində olub, bu istiqamətdə əməkdaşlığın perspektivləri barədə fikir mübadiləsi aparılıb.

Görüşdə həmçinin Bakı Dövlət Universiteti ilə Tbilisi Dövlət Universiteti (TDU) arasında əməkdaşlığın inkişafından razılıq ifadə olunub, TDU ilə Azərbaycanın digər ali təhsil müəssisələri arasında əlaqələrin inkişaf etdirilməsi istiqamətində müzakirələr aparılıb.

Görüşdə Tbilisi Dövlət Universitetinin nəzdində Azərbaycan dili və ədəbiyyatı fakültəsinin yaradılması və ya azərbaycanşünaslıq ixtisasının bərpa olunması məsələləri də müzakirə olunub. Qeyd olunan fakültənin yaranmasının və ya ixtisasın bərpa olunmasının Gürcüstanın azərbaycandilli məktəblərində kadr çatışmazlığı probleminin qarşısını alacağı vurğulanıb.

Daha sonra səfir Tbilisi Dövlət Universitetindəki Heydər Əliyev Auditoriyasında aparılan yenidənqurma və bərpa işləri ilə tanış olub. Universitet rəhbərliyi Auditoriyanın təmirdən sonra rəsmi açılış mərasiminin may ayında həyata keçirilməsini təklif edib.

Aprelin 20-si səfir Faiq Quliyev Gürcüstanın təhsil və elm naziri Giorgi Amilaxvari ilə də görüş keçirib.

Yeni təhsil naziri ilə görüşdə tərəflər təhsil və elm sahəsində mövcud və gələcək əməkdaşlıq məsələlərini müzakirə ediblər. Nazir Azərbaycanın səfirinə səmərəli əməkdaşlığa görə təşəkkür edib və Gürcüstanla Azərbaycan Respublikası arasında uzunmüddətli sıx tərəfdaşlığın mövcud olduğunu bildirib.

Faiq Quliyev Azərbaycanda elm və təhsil sahəsində həyata keçirilən islahatlardan danışıb, bu sahədə qarşılıqlı əməkdaşlığın hər iki tərəfə səmərə verəcəyini bildirib.

Görüşdə birgə layihələrin həyata keçirilməsi məsələləri diqqət mərkəzində olub.

Tərəflər təhsilin bütün səviyyələrində əməkdaşlığın dərinləşdirilməsi perspektivlərini müzakirə ediblər.

# BU DÜNYADAKI İZİN AXİRƏT SƏRMAYƏSİ OLSUN



İnsan olaraq hər birimiz həyata gəlirik, yaşayırıq və həyatla vidalaşıb gedirik. Həyata hər kəs ayaq basar, ancaq hər kəsin izi qalmaz. Əslində, çox insan izinin qalmasını istəyər. Bəzən bunun üçün ömrünü sərf edənləri görürük, bəzən insan planlaşdırıb əmək sərf etməsə də bu izlər qalır, ancaq əksəriyyətinin xəbərsiz olaraq düşən izləri müsbət yönlü olmur.

Doğuluruq, böyüyürük və cəmiyyətdə fərd oluruq. Yaşadığımız cəmiyyətin bir hissəsini təşkil edirik. İllər keçir, yaşayırıq, yaş üstünə yaş gələrkən başa da ağıl və təcrübə toplanır. Topladığımız təcrübələr bizləri biz edən amillər olur. Toplamış olduğumuz təcrübələrə rəğmən həyatda müsbət yönlü bir iz buraxa biləriksə, nə xoş bizlərə!

Əslində, insan yaşlanıb əldən-ayaqdan düşdükdən sonra anlayır həyatını necə keçirdiyini, insanlar üzərində necə bir təsir buraxdığını. Taqətdən düşüb, gözlərin qapılara dikildiyi, açılmağını səbirsizliklə gözlədiyi o qapıların astanasında dərk edir necə ömür yaşadığını. Əgər xeyirləri məsləhət görüb, yaxşı əməllərlə yoldaşlıq edəriksə o qapıların açılmasını gözləməyə ehtiyac qalmaz. Açılmasını səbirsizliklə gözlədiyimiz qapılar tez-tez açılıb-örtülər və içəri bizləri sevən, xoş ünsiyyətli, mehriban kimsələr daxil olar.

Həyat dediyimiz nədir ki – bəziləri səhnə adlandırır, bəziləri pəncərə adlandırır, bəziləri də müharibə meydanı adlandırır. Hər kəsin deyimində özünə görə haqlılıq payı vardır. Ancaq həyat iz buraxmaq üçün gəldiyimiz bir güzərgahdır deyərdim mən. Bu güzərgahda büdrəyib qalxmaq da var, yavaşlayıb durmaq da var, zaman-zaman irəliləyib düşünmək də var. Ancaq hər nə olursa olsun, düşərkən qalxmaq üçün tutduğumuz tutqacları yıxmadan qalxmağı bilməliyik. Biz dik duraq deyə başqalarını əyməmək, yıxmamaq məcburiyyətindəyik, ancaq bu yolla həyatda müsbət izlər buraxa bilərik.

Ömür yekunlaşdığında hər kəs xoş anılmağı, arxasında gözəl izlər buraxmağı istəyər. Bu da yalnız gözəl işlər görməklə mümkündür. Ona görə də ömrü elə tükətməliyik ki, qapımız bağlanmasın; elə ölək ki, yüz yaşımız olsa da gənc yaşda dünyadan köçmüşükmüş kimi təəssüratlar olsun arxamızda.

Başlıqda da vurğuladığım kimi, dünyadakı izimizin axirət sərmayəsi olması üçün cəmiyyət üçün xeyir həsənə – gözəl işlər görəriksə, keçilməsi çətin olan yolları hamar edəriksə, susayanların çox olduğu yerlərə sularla çatmağa çalışarıqsa, yetimlərin başlarına sığal çəkən əl olarıqsa, qərib kimsəsizlərin qeydinə qalarıqsa, heç kimsələrin salam vermədiyi kimsələrə salam verib hallarını soruşarıqsa, ümidləri solmuş kimsəyə ümid ola biləriksə və bütün sadaladıqlarımızı yalnız Allah üçün edəriksə, o zaman həyatdakı izimiz axirət sərmayəsinə çevrilə bilər. Sadaladığım xeyir işlərin yaxşılara məxsus olduğunu zənn edərkən yanılırıq. Tərsinə, hər kəs xeyir işləyə bilər. Bir mömin qədər hiyləgər bir münafiq də xeyir işinə girişə bilər. Çünki insanın xüsusiyyətlərindən biri də yaxşı bir insan olmaq yerinə yaxşı bir insan kimi tanınmaq arzusudur.

Yuxarıda sadaladığımız xeyirli işləri İlahi riza çərçivəsində görərək həm dünyada iz buraxmış olarıq, həm də axirət sərmayəmizi toplamış olarıq. Qısacası, iki tərəfli qazanc əldə edə bilərik Allahın izni ilə.

*Lamiyə HACIYEVA*
Bütün Gürcüstan Müsəlmanları
İdarəsinin Şərqi Gürcüstan Müftiliyinin Qadınlar Şurasının sədri

# SƏRHƏDLƏRİMİZİN ANATOMİYASI, PATALOGİYASI VƏ GİGİYENASI



**Esmira Ələkbərli**

Zəif yerdən vuranda...

Təbiətdə hər var olan bir sonla bitir və bu sonda dövrə qapanır; başlanğıcın son nöqtəsi... hansı ki, o nöqtədən bu dövrəni qırmaq çox asandır.

İnsanlıqda da var bu nöqtələr, biz ona zəif damar deyirik – bizi ən çox qıran, incidən, gücü hesablanmayacaq olan psixoloji zərbələr.

Hamımızın məktəb dərsliyindən Ayı və dostunun söhbəti yadınızdadır yəqin. Sonda da atalar sözü vardı: Xəncər yarası qurtarar, söz yarası qurtarmaz.

Hər dövr öz çətinlikləri, uyğunluqları ilə tarix olub. Biz də yaşadığımız tarixin pandemiya deyilən, tarixə düşən növbəti bir dönəmini addatdıq.

Tarixin yazılmamış qanunlarından olan "arvad söhbətləri", təbii ki, öz işində oldu. İnsanları gərgin saxlayan çip sindromu gündəmi zəbt etsə də isanlar tam olmasa da peyvəndləndi və 3 il çəkən bu zaman başa çatdı. Təbii seçmə kimi zəifləri sıradan çıxardı, güclülər uyğunlaşdılar və "COVID-19"a qalib gəldilər.

Bax beləcə dövr başa çardı, deyərdim ki, açılmayan sərhəd qapısı pandemiya dövrünün qalığı olaraq qaldı.

Nikolayın evini yıxan pıçhapıçlar müxtəlif variantlar irəli sürsə də həqiqət həqiqətliyində idi – bağlı sərhədlərin bağlı qalması labüdlüyü.

Siyasət elə bir sahədir ki, giriftar olmayan bilməz desək yerinə düşər. Zaman bizə tədricən sübut edir ki, sərhədin bağlı qalmağı labüdmüş.

Əgər evimdə qarışıqlıq ola bilərsə, qonum-qonşudan it, çaqqal hasarımın qırağında pusquda fürsət gözləyərkən evimə qonaqlar qəbul etməyim düzgünmü? Ailəmi qorumaq üçün neyləməli? Təbii ki, qonaq qəbul etməməli. Tam darvazanı bağlamaq da yox, xüsusi zənglə gələn qonaqları qəbul etməli... Analoqum uyğunmu?

Bu gün Azərbaycan üç tərəfi yağılar olan bir əhatədədir. Bu vəziyyətdə özünü qorumağın necə bir qəhrəmanlıq olması sözönü. Əminəm, zaman bizə bunu sübut edəcək və edir də.

Azərbaycan sərhədlərinin bağlı olmağı dünya ölkələri üçün heç də maraqlı olmaya bilər, amma Gürcüstan azərbaycanlıları üçün bu çox yox, lap çox əhəmiyyət kəsb edir. Böyük doğmalıq bağı illərdir hər ailədən üç övladdan ikisi, beş övladdan dördü Bakıda, Gəncədə yaşayarkən həsrətin dərəcəsi ölçüsüzdür.

Hər ailənin büdcəsi yol xərciylə düz mütənasib olmaya bilər, hamı hava yolundan istifadə edə bilmədiyinə görə vəziyyət acınacaqlı olur.

Təkrar edirəm ki, hər dövlətin öz daxili siyasəti var və bunun bizə görünən və gürünməyən tərəfi yox, tərəfləri var. Bunu borçalılar anlayışla qarşılamağa uyğunlaşmaqda ikən reytinq üçün öz qulaqlarını belə qurban verməyə hazır olan media nümayəndələri haradansa bir damcı tapır, onu üfürə-üfürə özünə oxşamayan bir biçimdə göl yaradır, hansı ki, o göldə damlaya uyğun heç nə yoxdur.

Məlumdur ki, sərhədlərin açılmasına dövlət başçısı qərar verər. Adı yadımızdan çıxan, ya heç eşitmədiyimiz bir deputat yuxudan oyanır və birdən deyir ki, ayın filanında sərhəd məsələsini müzakirə edək. Vəssalam. Media dəydi bir-birinə. Bütün saytlar yazır: filan tarixdə sərhədlərin açılması ehtimal olunur. Bax beləcə açılacaq sərhədləri həsrətlə gözləyənlərin "ürəyi atlanır". Kimi Bakıya getmək xəyalları qurur, kimi kəndə gəlmək xəyalları. Beləcə bir neçə ay çəkən həsrət döyüşü "karantin vaxtı filan vaxta qədər uzadılır" qərarıyla məğlub olur. Borçalılarda heysiyyat deyilən bir ifadə var, yəni zəif damar, zəif nöqtə... Onlayn toy, nişan, yas, nəvə, nəticə görən, bala boynuna həsrət insanların heysiyyatıyla oynamaq nə qədər vicdansızlıq!

Əlbəttə, burada dövlət yox, birbaşa media günahkardır.

İnsanlar belə yaşam tərzinə uyğunlaşmağa çalışır, az qala unudur və onlayn həyat tərzi həyatımıza girdiyi bir vaxtda şayəfason məlumatlar insanların "zəif damarını" tapdayır. Bu da cahil şəkildə etirazı hakimiyyətə yönəldir.

Dövlət qanunun hər maddəsinə hörmətlə yanaşarkən bu çalası (qatıq mayası) şəxslərin gündəm üçün yaratdıqları heysiyyat təhqiri insanlığın dövrənin o son birləşən nöqtəsindən qırılmasıdır.

Nolar, gəlin anlayışla davranaq. Başımız üstə qara bulud varkən açıq səmamıza şükür edək. Şükür edək ki, ən azı hava yoluyla yolumuz var.

Bizim səbrimiz kimlərinsə quyusuna su tökməz, o quyular quruyar. İnşallah, gün olacaq həqiqi vətənimizlə mənəvi vətənimizi əlaqələndirən sərhədimiz açılacaq.

Təki Vətən yaşasın!

## "5 YAŞLI UŞAQLAR MƏKTƏB ÜÇÜN HAZIR DEYİLLƏR, ÇÜNKİ BAĞÇA VƏ MƏKTƏB BİR-BİRİ İLƏ MÜNASİBƏT QURMUR" – PROFESSOR TƏHSİL NAZİRİNİN QƏRARI BARƏDƏ



**Noyabrın 1-nə qədər 6 yaşı tamam olmuş uşaqları da birinci sinfə qəbul edəcəklər. Bu məsələ valideynlərin razılığına səbəb olub. Bəs mütəxəssislər bu haqda nə düşünürlər? 5 yaşlı uşaqlar məktəb həyatına hazırdırlarmı?**

**Professor Nana Dixamincia sosial şəbəkədə məsələyə münasibət bildirib və onun statusunu olduğu kimi sizə təqdim edirik:**

"1 noyabra qədər 6 yaşı tamam olan uşaqları məktəbə aparmaq məcburidirmi – nazir bildirib.

Uşaq nə zaman birinci sinfə getməlidir, bu, onun yazmağı və oxumağı necə bilməsinə deyil, məktəbdə tələb olunan sərt nizam-intizama nə dərəcədə hazır olmasına bağlıdır. Xüsusilə Gürcüstanın məktəblərində pillədən-pilləyə keçid yüngül olmur.

Mənim Gürcüstan və Amerika məktəblərində müşahidəmə əsasən, bizim uşaqların 70 %-i 6 yaşında məktəb üçün hazır deyil və bunun günahı bağça ilə məktəbin heç Tbilisidə belə bir-biri ilə əlaqəsinin olmamasındadır. Bu iki pillə sadəcə bir-biri ilə münasibət qurmurlar. Bağça uşaqlarını gələcək məktəblərinə aparmırlar, məkanla və gələcək müəllimləri ilə bir neçə ay əvvəlcədən tanış etmirlər, məktəb ibtidai sinif şagirdlərinin və bağça uşaqlarının təcrübələrini bir-biri ilə bölüşmələri üçün onları görüşdürmür. Məktəblərin hiperaktiv, autizm spektrli və ya parta arxasında 10 dəqiqədən artıq otura bilməyən, davranış çətinlikləri olan uşaqlar üçün uyğun məkanları, metodları yoxdur. 5-6 yaşlı uşaqlar üçün uyğun yeməkxana və qida modeli yoxdur. Özəl məktəbləri nümunə gətirməyin, onlar istisnalardır və həm də, mənim uşaqlarım Tbilisidə ümumilikdə 5 ən yaxşı özəl məktəb keçiblər, heç birinin sona qədər dolğun sistemi yox idi.

Gürcüstanın ictimai məktəblərində 5 yaşlı uşaqlar üçün hazırlıq kursu yoxdur. Bu, bağçaya getməyən və birbaşa məktəbə qəbul edilən uşaqlar üçün çox mühümdür.

Həmçinin bizdə Amerikada olduğu kimi dövlət xidməti yoxdur: Amerikada demək olar ki, bütün bələdiyyələrdə bu xidmət var. Həmin xidmət uşaqların hazırlıq sinfinə getmək üçün nə dərəcədə hazır olduğunu, hansı bacarıqları inkişaf etdirməli, nə dərəcədə müstəqil olduğunu, qrupla necə münasibət qurduğunu, böyüklərin izahını necə başa düşdüyünü və s. müəyyən edir.

Əslində, uşağı məktəbə aparmaq üçün, ümumiyyətlə, tələsmək lazım deyil. Bu bir il heç nə artırmır və məktəbi bitirəndə 18 yaşında olması, universitetə yetkinlik yaşında girməsi, hətta, yaxşıdır. Sizi məyus etsəm də deyəcəm ki, bizim elə proqramımız var, sizin çox ağıllı uşağınız birinci sinifdə əsnəməkdən yorulacaq, ya da bütün vaxtını inkişaf əvəzinə rutin işlərə sərf edəcək. Çünki ibtidai siniflərdə, ictimai, hətta özəl məktəblərdə də, fərqli yanaşma yoxdur.

Xüsusilə ağıllı uşaqların tez-tez davranış problemləri olur, çünki qaydaları kor-koranə qəbul etməkdə və bütün böyüklərə tabe olmaqda çətinlik çəkirlər. Böyük onların gözündə avtoritet olmalıdır, bu isə Gürcüstanın məktəblərində diqqətdən kənarda qalır. Ona görə, əksinə, əgər sizin uşağınız "Pələng dərisi geymiş pəhləvan"dan sitatlar öyrənir və vurma cədvəlini əzbər bilirsə, onun ünsiyyətinə, fiziki inkişaf aspektlərinə daha çox diqqət yetirməniz yaxşı olar. Vaxtından əvvəl məktəbə aparmağa tələsməyin, aparan zaman isə məktəbdən fərqli yanaşma tələb edin. Bu, onsuz da standartlarımızda yazılıb.

Bunların hamısını boşuna demirəm. Mən özüm eyni səhvə yol verdim. Oktyabrda hiperaktiv uşağı özəl məktəbə apardım və sonra yaşamaq üçün Amerikaya gələnə qədər, üç ilimi onun davranışlarını qaydaya salmağa sərf etdim. Burada məktəb üçün uşağın fiziki, zehni və sosial hazırlığının nə olduğunu gördüm və məktəbə qoymaq qərarını qəbul etmək üçün niyə 5 yaşında uşağın heyrətamiz faktlar bilməyinin vacib olmadığını bildim.

Tələsməyin. Uşağın zehni inkişafı üçün o qədər onlayn resurslar, kitablar, fəallıqlar var ki. Müşahidə edin, uşaq birdən-birə bu qədər səs-küylü, tələbkar məkana keçməyə nə dərəcədə hazırdır. Məktəblərdən isə ağıllı uşaqların ehtiyaclarını təmin etməyi də tələb edin".

## NOYABRIN 1-NƏ QƏDƏR 6 YAŞI TAMAM OLAN UŞAQLAR DA BİRİNCİ SİNFƏ QƏBUL OLUNACAQLAR

Gürcüstanın təhsil və elm naziri Giorgi Amilaxvarinin bəyanatına əsasən, 1-ci siniflərin məktəbə qəbul yaşında dəyişiklik edilib. Yeniliyə görə, 2023-2024-cü tədris ilində 31 oktyabr da daxil olmaqla 6 yaşı tamam olmuş uşaqlar da birinci sinfə qəbul olunacaqlar.




**"Məktəb infrastrukturu ilə yanaşı valideynlərin uşaqların məktəb yaşı ilə əlaqədar tələbini mərhələli şəkildə təmin etmək imkanımız var. Buna görə də qərar qəbul etdik, noyabrın 1-nə kimi 6 yaşı tamam olan uşaqların birinci sinfə qeydiyyatdan keçmək hüququ olacaq. Bildiyiniz kimi, indiyə qədər 1 oktyabra qədər 6 yaşı tamam olan uşaqların birinci sinfə qeydiyyatdan keçmək hüququ var idi"**, - deyə G.Amilaxvari bildirib.

Onun sözlərinə görə, bu proses davam etdiriləcək və hər il qeyd olunan müddət yekun tarixə qədər çəkiləcək. Bu tarix 31 dekabrdır.

Valideynlər üçün bu məsələ könüllüdür. Onlar uşaqlarını məktəbə qoymaq və ya bağçada saxlamaq qərarını özləri verirlər.

## ƏN ÇOX ABİTURİYENT TARİX FƏNNİNİ SEÇİB

Qiymətləndirmə və İmtahanlar üzrə Milli Mərkəz 2023-cü ildə abituriyentlərin seçdiyi fənlərin statistikasını yayımlayıb. Ən çox seçilən fənlər arasında birinci yerdə tarix, ikinci yerdə riyaziyyat, üçüncü yerdə isə biologiyadır.



**Digər fənlərə gəldikdə isə göstəricilər aşağıdakı kimidir:**

- Tarix – 22 200-ə yaxın abituriyent;
- Riyaziyyat – 15 700-dən artıq abituriyent;
- Biologiya – 3 600-dən artıq abituriyent;
- Kimya – 2 600-dən artıq abituriyent;
- Coğrafiya – 2 200-dən artıq abituriyent;
- Fizika – 700-ə yaxın abituriyent;
- Ədəbiyyat – 1 300-ə yaxın abituriyent;
- Vətəndaş təhsili – 2000-dən artıq abituriyent;
- Tətbiqi və təsviri incəsənət – 300-dən artıq abituriyent.

Qeyd edək ki, 2023-cü ilin vahid milli imtahanlarına qeydiyyat 3 apreldə başa çatıb. Vahid milli imtahanlar üçün 45 000-dən artıq abituriyent qeydiyyatdan keçib. Abituriyentlərin 13 aprel saat 18:00-a kimi imtahan verəcəkləri fənlərin siyahısında dəyişiklik etmək və imtahan dilini dəyişmək imkanları var idi.

Xatırladaq ki, vahid milli imtahanlarda iştirak edənlər təhsil proqramları siyahısında apelyasiya nəticələrinin yayımlanmasının növbəti gününə qədər dəyişiklik edə biləcəklər. Dəqiq tarix avqust ayında məlum olacaq.

## AZTƏMİNATLLI UŞAQLAR HƏR AY 200 LARİ ALACAQLAR

Hökumətin qərarına əsasən, aztəminatlı uşaqlar üçün nəzərdə tutulmuş yardım artırılır. 2023-cü ilin 1 iyulundan aztəminatlı uşaqlar hər ay yardım olaraq 200 lari alacaqlar. Bu barədə Səhiyyə Nazirliyi məlumat yayıb.

200 lari yardımı 16 yaşa qədər olan aztəminatlı, ailələrinin reytinq balı 120 000 baldan artıq olmayan uşaqlar alacaqlar.

**Proqramın büdcəsi 465 milyon lari təşkil edir. Təxminən 232 000-ə yaxın uşaq artırılmış yardım alacaq.**

*Səhifədəki məlumatlar "etaloni.ge" saytından götürülüb. Gürcü dilindən tərcümə etdi:*
**Aynurə ƏLİYEVA**

# VARLIQ İÇİNDƏ YOXLUQ



“Gürcüstan təbii su ehtiyatları ilə zəngin olan bir ölkədir”. Belə cümlələrə yüzlərlə insanın istifadə etdiyi vikipediya kimi mənbələrdə və coğrafiya kitablarında rast gəlmək olar, bircə şəhər statusu almış, lakin şəhər sözünün “ş” hərfinə belə yaxınlaşa bilməyən Qardabanidə yox. Səbəbi də son vaxtlarda suların kəsilməsidir. Son vaxtlar deyəndə, son yarım ilin, demək olar ki, hər həftəsini nəzərdə tuturam. Son deyirəm, amma bu hal sonlanmır. Sanki su insanlar kimi özəl şirkətdə işə düzəlib, həftə içi beş gün işləyir, həftə sonu isə kəsilir. Həftə sonu kəsilməyəndə həftə içi mütləq kəsilməlidir. Belə olanda da gərək gözləyəsən o biri həftənin birinci gününü. Çünki bizdə belə bir xüsusiyyət var: hər hansı işə başlamaq, həyatımızda nəyisə öz qaydasına salmaq, nəyəsə qərar vermək, bu qərarları icra etmək, dietaya başlamaq və nəsə xarab olanda təmir etmək və etdirmək üçün bazar ertəsini gözləyirik. Suyun kəsilməyi də, təbii ki, bu ənənəyə sadiq qalıb. Onsuz da su bütün günü gəlmirdi, amma heç olmasa bilirdin ki, gündüz 7-12, axşam isə 6-10 saatları arasında su gəlir. Təəssüflər olsun ki, biz çoxa tamah edib azdan da olduq. İndi heç beş-altı saat gələn sular da gəlmir. Mən uşaq olanda kənddə nənəm su qablarını boş görəndə – “A bala, kiməsə nəsə olsa üzünə çiləməyə bir damcı suyumuz yoxdur, gedin bir qab su gətirin” – deyib bizi göndərərdi su gətirməyə. Qoymazdı su qabları boş qalsın. Qardabanidə indi biz su qablarını zorla doldururuq. Ev susuz qalmasın deyə də suyu qıta-qıta işlədirik. Belə getsə “Bədənimizin 70-80 faizi sudur” göstəricisi azalacaq. Bir də deyirlər insan gündə iki litr su içməlidir. Əgər bunu deyən mütəxəssislər buraya gəlsə yəqin iki litr suyun da miqdarı azalar. Bu qədər söhbətin məğzi cəmi iki sualdan ibarətdir:

1. Sular niyə tez-tez kəsilir?
2. Camaat niyə buna etiraz etmir?

Birinci sualın cavabını heç özüm də bilmirəm. Kimi deyir borularda problem var, kimi deyir su anbarı boşalıb, kimi də deyir özləri vermir. Bunların nə qədər doğru olduğu bir müəmmadır.

İkinci sualın cavabı isə bizim qanımıza hopmuş xüsusiyyətlərimizdir. Bilmirəm Qardabaninin havasındandır, yoxsa neçə vaxtdır olmayan suyundandır, nədəndir, buranın sakinlərinin lüğətində etiraz sözü yoxdur. Elə bil heç kim haqq və hüquqlarını bilmir. Təsəvvür edin, neçə vaxtdır sular kəsilir, amma bu bir nəfərin belə vecinə deyil. Elə hamı bu vəziyyətdən razıdır. Bir Allahın qulu da çıxıb demir ki, bu sular niyə gəlmir. Kimisə dindirəndə o saat başlayır: “Əşşi, sudur da, axşamda, sabahda gələr, bir biz deyilik ki”. Doğrudan da bəzən çox vecsiz insan oluruq, öz haqqımızı qorumaq üçün ağzımızı açıb bir kəlmə söz demirik. Referendum zamanı bir mənim səsimlə nə dəyişər fikri hər sahəni bürüyüb. Mən də susuram, siz də susursunuz. Sonra da bir damcı suya möhtac qalırıq. Təbii ki, bu cür problemlərin həllinə bələdiyyə baxmalıdır. Bələdiyyə məsuliyyət göstərmir deyə biz də susası deyilik ki. Gərək biz gündəlik tələbatımızı qarşılayan su çatışmazlığı ilə bağlı problemi bildirək ki, onlar da həll etsin. Yoxsa nə qədər kirli paltarlarla, qablarla baxışmaq olar. Kişilərin nə vecinə. Səhərdən işə gedən işinə, getməyən də çayxanaya gedir. Deyəndə ki, gedək su ilə bağlı problemi bildirək, deyirlər, haraya gedirik. Əgər Qardabanidə bu işə baxan yer varsa apar bizi də.

Belə baxanda adam haqlıdır. Burada elə yer varmı? Gərək gedəsən Rustaviyə. Ora da çox uzaq olduğundan heç kim getmir, axı gömrük filan keçmək lazımdır. Onsuz da kişilər qab, paltar yumurlar, gündəlik su tələbatlarını da çayxanada çay içməklə ödəyirlər. Onda da yazıq qadınlar qalır susuzluqla üz-üzə.

Həqiqətən su olmayanda qarışıqlıq olur. Adam bilmir işin harasından başlasın. Amma biz çətinliyə öyrənmişik. Bu səsimizin çıxmamağından bəllidir. Bir də, bizdə problemi kökündən həll etmək qabiliyyəti yoxdur. Suyun niyə tez-tez kəsildiyini öyrənib bunu həll etmək yerinə, evə su çəni alıb quraşdırırıq. Bu da olur müvəqqəti çarə, hansı ki, çən boşalana qədər effektivdir. Sonrası yenə sükut.

Heç nə demirəm, su gələndə hamının çənə su açmaq yadından çıxsın və elə bir vəziyyət yaransın ki, etiraz etməyə məcbur qalaq. Çünki biz artıq bunu öyrənməliyik. Yoxsa başımıza vurub çörəyimizi əlimizdən alan çox olacaq. Yox, əgər belə getsə, Avropaya tərəf yola çıxan Gürcüstanın Afrikadakı qonaqlığı uzun çəkəcək.

***Çiyalə Osmanova***
*Qardabani 3 saylı ictimai məktəbin 12-ci sinif şagirdi*

# KEÇMİŞİNDƏN UTANANLAR



Hər bir insanın yaxşı, pis yaşadığı keçmişi vardır. Kimisi keçmişinə baxarkən duyğulanır, kimisi kədərlənir, kimisi hirslənir, kimisi də sevinir... yəni, bir sözlə, hər bir insanın keçmişi vardır. Keçmişimizdən razı və ya narazı olsaq belə, o bizim keçmişimizdir. Bəzilərimizin keçmişi yaxşı olsa da, bəzilərimiz bu qədər şanslı olmuruq, yaxud da səhv qərarlar verərək öz keçmişimizi özümüz yazırıq və gələcəkdə də keçmişdə etdiklərimizdən utanırıq. Bəzən səhv edə bilərik, ancaq insan hər səhvi düzəltməyi mükəmməl bir şəkildə bacarmalıdır, çünki həqiqətən edə bilərik; biz insanların çalışıb, istəyib də edə bilməyəcəyi heç nə yoxdur bu dünyada.

İnsanlar iki cürdür: kimisi keçmişində çox böyük səhvlər edir, ancaq etdiyi səhvlərdən bir qram belə olsun utanmır; kimisi isə çox kiçik səhvlər belə etsə özündən, keçmişindən utanır. Bəs sizcə, insanın keçmişi gələcəyinə təsir göstərirmi? İnsan keçmişdə etdiyi səhvlərdən utanmalıdırmı? İnsanı keçmişinə görə sorğulamaq nə qədər doğrudur? İnsan dostlarını, yaxınlarını keçmişinə görəmi seçməlidir?..

Məncə, bizim keçmişimizin gələcəyimizə çox böyük təsiri vardır. Fikrimcə, insanın keçmişi binaya bənzəyir, necə ki, binanın özülü möhkəm olmadıqda ilk zərbədə yıxılır, insan da belədir, hər kiçik səhvində keçmişini bir zərbə olaraq istifadə edirlər.

İnsan keçmişdə etdiyi səhvlərdən utanmamalıdır, əksinə, dərs çıxartmalıdır. Kimsə bizi keçmişimizlə alçaltmağa çalışdıqda cəsarətli olub özümüzü düzgün şəkildə ifadə etməliyik, əgər etməsək, bu zaman keçmişimiz bizi ələ keçirər və onun qarşısında aciz qalarıq.

İnsanlar dostlarını, yaxınlarını keçmişinə görə seçir. Bəli, bu, doğrudur, hətta bəzi insanlar ailəsinin keçmişinə görə öz gələcəyini qura bilmirlər. “Onun ailəsi nə idi ki, balası da nə olsun” deyirlər. Məncə, bu, çox səhv bir düşüncədir, insanın ailəsi nə qədər pis olursa olsun, onun övladının da pis olacağı mənasına gəlmir. Bəlkə övladı ailəsinə baxıb dərs çıxardır və ailəsi kimi bir keçmişi olmasını istəmir. Buna görə də dostlarımızı seçərkən onun keçmişinə yox, onun keçmişdən çıxartdığı dərsə və mənliyinə baxmaq lazımdır.

Bu yaxınlarda belə bir söhbətin şahidi oldum: bir xanım keçmişində etdiyi səhvlərindən, insanların onun haqqında dediyi, düşündüyü mənfi düşüncələrdən qurtulmaq üçün hicab örtür. Ancaq bu zaman bəziləri həmişə olduğu kimi yenə mənfi düşüncələrindən əl çəkmirlər, etdiyi səhvləri hicabla örtməyə çalışır deyirlər. Maraqlı məqam da budur ki, xanım haqqında mənfi danışanların sayının azaldığını görən kimi hicabını çıxardır.

Hər nə səhvimiz olsa da, səhvlərimizi ört-basdır etmək üçün belə işlərə əl atmamalıyıq, hicab oyuncaq deyil. Bəlkə keçmişimizdən dərs çıxardıb həqiqətən də doğru yolu düzgün bir şəkildə tapmalıyıq, daha dini əlimizdə oyuncaq edib keçmişimizdə etdiklərimiz səhvlərin üzərinə bir o qədər də günah əlavə etməməliyik.

Gələcəkdə nə olacağını heç kim bilə bilməz, ancaq çalışaq ki, gələcəyimizdə böyük səhvlərimiz olmasın, gələcəyimizə baxarkən utanmayaq. Bu günümüz sabahın keçmişi, sabahımız isə bu günün gələcəyidir. Gələcəyimiz də, keçmişimiz də bizlərin əlindədir.

***Alina Fətullayeva***
*Qardabani 3 nömrəli ictimai məktəbin 12-ci sinif şagirdi*

# "KOROĞLU"NUN ƏXLAQİ-ESTETİK ƏQİDƏSİ

**Elizbar CAVELİDZE**

*(əvvəli ötən sayda)*

**Dördüncü boy.** Çənlibeldə dəlilərin sayı tədricən artdı və onların sayı yeddi yüz yetmiş yeddiyə çatdı. Koroğlunun özü də fəallıq edirdi, soraqlaşır, salıqlaşır, harada bir igidin olduğunu öyrənirdisə, əlləşib, vuruşub Çənlibelə gətirirdi.

Gözəl günlərin birində Koroğlunun yolu Naxçıvan şəhərinə düşdü. Şəhəri sağa, sola gəzdi, axırda bir nalbənd dükanının qabağında atını saxladı. Nallar almaq istədi. Lakin ona uzadılan nalı bircə-bircə əlinə alıb xəmir kimi yoğurdu və geri qaytardı. Nəhayət, nalların vurulmasında Koroğlu ona kömək etdi və Qıratın ön ayaqlarını qaldırdı, lakin məsələ arxa ayaqlarına gələndə, at şıllaq atdı və Koroğlu da nə qədər əlləşdisə atın ayağını saxlaya bilmədi.

Bütün bunları nalbəndin oğlu, xırdalığından tay-tuşlarının Dəmirçioğlu adlandırdığı yeniyetmə, cavan bir oğlan seyr edirdi. Qollu-qüvvətli, boylu-buxunlu bir igid olmuşdu ki, bir baxan, bir də baxım deyirdi. Yavaşca dükandan çıxdı. Koroğlunu bir tərəfə itələyib atın dal ayaqlarının ikisini də yerdən götürdü. Dəmirçioğlu altdan yuxarı Koroğluya baxıb dedi: "Bu boyda adam bir atın ayağını da qaldıra bilmir?.."

Nəhayət, nalbənd atın ayaqlarını nallayıb qurtaranda Koroğlu əlini cibinə salıb pul çıxartdı. Dəmirçioğlu pulu alıb o yanına çevirdi, bu yanına çevirdi, əlində mum kimi əzib geri qaytardı: "Verirsən, əməlli-başlı pul ver, bu əzik-üzükləri niyə bizə verirsən?" Koroğlu yenə də ona yeni pul uzatdı, lakin Dəmirçioğlu pulu iki barmağının arasına aldı və əzdi.

Koroğlu anladı ki, gənc ona meydan oxuyur. Lakin bir şey demədən atına mindi və fikirli-fikirli yola düşdü.

Bundan sonra ata-oğul arasında mübahisə baş verir. Koroğlunu tanıyan ata oğlunu məzəmmət edir ki, paşalara və bəylərə qan udduran qoç Koroğluya qarşı belə saymamazlıqla davranmamalı idi, çünki onun adı gələndə xotkarlar və paşalar tir-tir əsirlər, canlarına vəlvələ düşür. Oğul isə atasına hücuma keçir ki, onun Koroğlu olduğunu mənə vaxtında niyə demədin? Ona ağıl öyrədərdim, ona Koroğluluğunu göstərərdim. Ata oğula heç nə başa sala bilmədi, oğul özününkünü deyirdi və Koroğlu ilə görüşmək, onun Qıratını əlindən almaq üçün atasından gizlicə gecə aradan çıxdı.

Doğrudan da zülmət gecədə o, Koroğluya rast gəldi. Koroğlu onu tanıdı və nə məqsədlə Çənlibelə gəldiyini ondan səsini qısaraq soruşdu. Dəmirçioğlu qəlbini açdı: Koroğlunu məğlub etmək və Qıratı oğurlamaq istəyir. Qıratın oğurlanmasında Koroğlu da ona kömək etdi. Çətin həyata keçiriləcək oğurluq prosesini başa çatdıranda Dəmirçioğlu Koroğlunu tərkinə aldı və atı çapdı. Yolda Koroğlu ona müraciət edir:

"– İndi, işdir, birdən Koroğlu qayıdıb Qıratın aparıldığını bildi, dəlilərini də götürüb dalımızca gəldi, onda biz neyləyəcəyik?

– Gəlib bizə çatarlar və elə mən də bunu istəyirəm. Mən onun nə qılıncından qorxuran, nə şeşpərindən, nə də ki, dəlilərindən. Amma deyirlər dava eləyəndə onun bir nərə çəkməyi var. Qorxsam, qorxsam, bəlkə bircə o nərədən qorxam.

Koroğlu ona yenə bir şey demədi və Çənlibeldən əməlli-başlı uzaqlaşanda ağzını onun qulağına dayayıb bir dəli nərə çəkdi. Dəmirçioğlu aşıb düz Qıratın ayaqları altına düşdü. Koroğlu zəncirlə onun qollarını möhkəm-möhkəm bağladı və Dəmirçioğlu handan-hana özünə gələrək qalxıb oturanda ona dedi:

– Əhsən sənə. Halaldır sənə bu ad. Aç qollarımı gedək. Bu gündən mən sənə kiçik qardaşam.

Koroğlu dedi:

– Yox aşna, qollarını aça bilməyəcəyəm. Açaram, sonra dəlilik edərsən. Dur, elə belə gedək.

Dəmirçioğlu dedi:

– Arxayın ol, aç qollarımı. Dedim ki, bu gündən sənə qardaşam.

Koroğlu qulaq asmadı. Dəmirçioğli işi belə görəndə dedi:

– Mən mərdəm, söz verdim, elərəm. Sən elə bilirsən ki, bəs sən açmayanda mən özüm aça bilməyəcəyəm?

Bunu deyib bircə dəfə güc verdi, zəncir parça-parça olub yerə töküldü. Sonra üzünü Koroğluya tutub dedi:

– Koroğlu, sən mənə etibar eləyib qollarımı açmadın. Amma mənim sözüm sözdür. Hara deyirsən gedək. Day ölüncən səndən ayrılmayacağam" *(Bax: Elə orada, səh. 94, 101)*. Və beləcə Koroğlunun dəlisi oldu.

Bu qısa dastan hər şeydən öncə süjetin inkişafının dinamikliyi ilə, hadisələrin gözlənilmədən gediş effekti ilə, istehzanın və igidlik, ləyaqət hissinin parıldadığı qısa çevik dialoqla diqqəti cəlb edir. Qeyd etmək lazımdır ki, Koroğlu bu dastanda tərəddüdlük qabiliyyətini göstərir və özünün də fərqləndiyi fiziki qüvvə ilə deyil, eləcə də səbirlə, ağıllı fəndlə çətinliyin öhdəsindən gəlir. O, konkret halda özünün dəhşətli səsindən istifadə edir ki, bunu da ilahi qüvvə ona bəxş etmişdir. Elə burada azərbaycanlı, qafqazlı igidin sözünün üstündə durmasının etik əqidəsi özünü büruzə verir ki, bu da Dəmirçioğlunun davranışı ilə aydınca təsdiqlənir. Amma elə burada Koroğlunun bir növ təbii qüsuru – inamsızlıq ilə əks olunan qüsuru özünü büruzə verir ki, bu da mövcud real məişətin və ağır həyatın, gərək ki, nəticəsi olmalıdır.

**Beşinci boy.** Artıq qeyd etdiyim kimi, xalq düşüncəsi Koroğlunun dolğunluğunun təsvir olunması üçün fiziki qüvvənin hiperbolizasiyası kifayət etmədi və güclü səs çıxartdı, nərə çəkdi, bu da düşmən üzərində qələbə alətinə çevrildi və ona mənəviyyatını əks etdirən mahnı oxumaq istedadını bəxş etdi, aşıq adı ilə də onu gözəlləşdirdi. Belə ki, "Koroğlu" eposunun bu dastanında aşıq Cünunun görünməsi təəccüblü deyildir, əgər xatırlasaq, həqiqətdə də Koroğlunu şöhrətləndirən və onun qəhrəmanlığını mahnı ilə verən bir neçə aşıq olub.

İndi qısaca olaraq bu dastanın süjeti və motivi barədə: Ərzurumlu Cəfər paşanın adlı-sanlı Cünun adlı bir aşığı vardı, bu da ki, "çox məclislər görmüş bir ustad idi, çox özündən dəm vuran aşıqların sazını əlindən alıb yola salmışdı, çox cavanları da öyrədib, əlinə saz verib aşıq eləmişdi". Bu dünyagörmüş aşıq xotkarın qızını qaçırmağa nail olan adlı-sanlı qaçaq Koroğlunu görmək istəyirdi. Gözəl günlərin birində də gizlicə aradan çıxdı və Çənlibeldə Koroğluya yetişdi. Koroğlu onun əlindən tutub hörmət-izzətlə qarşıladı. Xoş beş, on beşdən sonra süfrə açıldı. On beş gün ona nağılvari ev sahibliyi etdi. Nəhayət, aşıq bu yerləri tərk etmək qərarına gəldi. Koroğlu isə paşalara, bəylərə bel bağlamamasını, ona burada qalmasını məsləhət gördü. Qal burada, bizim aşığımız ol dedi. Lakin Cünun onu eşitmədi və Ərzuruma qayıtdı.

Sonra yeni epizod açılır ki, burada da baş rolu Cəfər paşa və Telli xanım oynayır. Telli xanım aşığın Çənlibeldən qayıtdığını eşidəndə Koroğlu və onun dəliləri barədə ona danışması üçün yanına çağırtdırır. O da istedadını əsirgəmir və Çənlibel, dəlilər və Koroğlu barədə mahnı ilə, saz ilə məlumat verir. Bu ərəfədə Cəfər paşa Cünunu axtarır və onun bacısının yanında olduğunu eşidəndə özünü ora yetirir. "Qəribə adam" olan Koroğlunun kim olduğu onu da maraqlandırır. Cünun da geri çəkilmir. Sazı sinəsinə basıb Koroğlunu tərif edir. Alovlanmış Cəfər paşa onu zindana saldırır və dar ağacından asdırmaq istəyir. Telli xanım anladı ki, qardaşının yanında sözlə və yalvarışla heç nəyə nail ola bilməz və buna görə pəhləvan libası geyindi, qılınc qurşadı, nizə asdı, əmud götürdü və zindanın qapısına gəldi. Dustağı qoruyan iki keşikçini yaxşıca əzişdirib dərslərini verdi. Aşıq Cünunu zindandan çıxaranda keşikçiyə dedi: "Mən qoç Koroğluyam... Mən aşıq Cünunu özümlə Çənlibelə aparıram. Amma şəhərdə adam qoyuram. Paşaya deyərsən ki, eşidəm, biləm, Telli xanıma güldən ağır bir söz deyib, torpağını torba ilə daşıtdıraram". Aşığı isə mənzilinin altındakı zirzəmidə gizlətdi. Bir qalmaqal qopdu, axtarış başladı. Lakin Cünunu heç yerdə tapa bilmədilər. Bir neçə gündən sonra aşığı Çənlibelə yola saldı və Koroğluya ismarıc göndərdi: "Məndən qoç Koroğluya salam yetirərsən. Deyərsən ki, bundan sonra beş özündən deyəndə, bir də bizdən desin" *(Bax: "Koroğlu", səh. 144)*.

Cünun bir təhər Çənlibelə çatdı və bütün bunları Koroğluya onun adı ilə Telli xanımın necə xilas etdiyini nəql eylədi.

Azərbaycanlı igidlərə yaraşan hal olaraq Koroğlunun dəliləri yekdilliklə qərara gəldilər ki, igid kimi davranan Telli xanımı Cəfər paşanın ümidinə qoymaq qorxulu və layiqsiz idi. Burada Koroğlunun bu çətin tapşırığın həvalə olunacağını necə seçməsi diqqət çəkir: "Koroğlu bir alma götürdü. Saplaq tərəfinə bir üzük taxıb Dəmirçioğlunun başına qoydu. Qayıdıb ata mindi. Covlana gətirib bir o başa sürdü, bir bu başa sürdü. Yay-oxu çilləyə mindirib Dəmirçioğlunun başındakı almaya düz qırx ot atdı. Oxların hamısı bircə-bircə üzüyün halğasından keçdi.

Dəlilər, Nigar xanım, aşıq Cünun hamısı durub baxırdı. Dəmirçioğlu nə bircə dəfə gözünü qırpdı, nə də yerindən qımıldandı, nə də rəngi qaçdı. Necə dayanmışdı, eləcə də axıracan dayandı" *(Bax: Elə orada, səh. 149)*.

Bunu görən Koroğlu atdan düşdü. Dəmirçioğlunu qucaqlayıb üzündən, gözündən öpdü. Könlü havalandı, ürəyi coşdu, ona təriflər qoşdu. Və Telli xanımı xilas etməyə yolladı.

Sonra Dəmirçioğlunun sərgüzəşti başlayır. Hələ o yolda yorğun olduğundan yuxuya gedir və atını itirir. Lakin naxırçının sayəsində deyişmə aparır, izinə düşür, Ərəbatı tapır, minib Ərzuruma gedir və gəlib bir meydana çıxır ki, burada da pəhləvanlar bir-birilə güləşirlər. Bu yarışda Telli xanım və Cəfər paşa da iştirak edirdilər. Dəmirçioğlu da bilavasitə pəhləvanlar güləşinə qatılır, məğlubedilməz Qara pəhləvanın kəmərindən yapışıb, dik götürüb yerə vurur. Sonra əlini atıb Telli xanımı götürüb atın tərkinə aldı və Çənlibelə tərəf yol başladı. Aydındır ki, Cəfər paşanın qoşunu onu təqib etdi. Dəmirçioğluna artıq quşu qonan Telli xanım yalvarır ki, yoldan uzaqlaşsın, çünki Osmanlının saysız-hesabsız qoşunu onun arxasınca gəlir. Bir nəfər min nəfərə nə edə bilər. Lakin Dəmirçioğlu tərslikılə eyni kəlməni təkrar edir: "Ölər əcəm oğlu, getməz bu yerdən!" Telli xanım görür ki, Dəmirçioğlu gedən deyil, qoşun da yaxınlaşır. Onunla birlikdə mübarizəyə hazırlaşır. Dəmirçioğlu şeytanlıq edir, ona qılınc, qalxan verir, pal-paltarını nizama salmaq üçün mağaraya aparır, sonra yekə bir daşı mağaranın ağzına tıxayır və təhlükəni başından rədd edir. O səbəbə görə ki, birincisi, onun başına heç nə gəlməsin deyə, dəlilər və Koroğlu qarşısına nə üzlə çıxacaqdı və ikincisi də, dəlilər deyəcəkdilər ki, Dəmirçioğlu arvad köməyinə qalıb *(Bax: "Koroğlu", səh. 124)*.

Qısası, saysız-hesabsız qoşun qarşısında Dəmirçioğlu tək qaldı. Xeyli mübarizə apardı, onun üstünə düşənlərin öhdəsindən gəldi. Nəhayət, Cəfər paşa əyyarları yanına çağırdı. Bu sonuncular Dəmirçioğlunun üstünə bihuşdar tökməyə başladılar və o huşdan gedib yıxıldı. Lakin Ərəbatı heç kimi onun yanına buraxmır. Axırda o da at sürüsünü görəndə Dəmirçioğlundan əl çəkir, ilxıya qoşulur. Dəmirçioğlunu əsir götürürlər, götürüb şəhərə gətirirlər və onu pəhləvan meydanında bir dirəyə sarıyırlar.

Dəmirçioğlunun gecikməsi Koroğlunu fikrə saldı. Pis yuxu da gördü. Ürəyinə dammışdı ki, Dəmirçioğlunun başında bir iş var. Dəliləri ilə birlikdə Ərzuruma doğru yollandı.

Dəmirçioğluna dəhşətli dərəcədə işgəncə verirdilər. Dərisini soyub, yerinə saman təpirdilər, lakin Telli xanımın harada olduğunu ona dedizdirə bilmədilər. Onda dəlinin dar ağacından asılması qərarına gəlirlər. Məhz elə bu zaman Koroğlu öz dəliləri ilə Ərzuruma çatdı. Koroğlu öz fəndini işə saldı. Aşıq libasında meydana çıxdı və sazı sinəsinə basıb huşu başında olmayan Dəmirçioğluna üz tutdu və işarə etdi ki, dəlilər buradadır. Nəhayət, Telli xanımın mağarada olduğunu öyrənir. Onu gətirir və dəlilərin qoşununu darmadağın etdikləri Cəfər paşanı qabağına salıb gətirir. Dərmirçioğlunu asdırmaq istədiyi dağı dolandırır və öldürmək istəyir, lakin Telli xanım yaylığını başından açıb onun ayağının altına atır və onun bağışlanımasını xahiş edir. Koroğlu da onu bağışlayır. Ondan sonra dəlilər də atlandılar. Dəmirçioğlunu da müalicə edirlər və onun toyunu edirlər. Bu dastanın ən uzun dastan və çoxlu epizod vericisi olmasına baxmayaraq, onu oxumaq oxucuda inciklik, darıxdırıcılıq əmələ gətirmir. Əksinə, bu hadisələrin gedişi onu gərginləşdirir və maraq oyadır. Bundan başqa, dialoqlar həddindən artıqdır ki, bunlar da həyati məqam kəsb edir və bir növ süjetin axınını canlandırır. Bununla yanaşı, çox hallarda bu dialoqlar aşıq deyişmələri formasını alır. Müəyyən olunduğu kimi, saz mahnısı da estetik emosiyanın oyadıcısıdır. Mənim fikrimcə, məhz elə bu dastanda bu aşıq repertuarının həddindən artıq olmasına səbəb olur. Elə burada unutmamalıyıq ki, hər şeyə qadir Koroğlu döyüş əhval-ruhiyyəsini yüksəltmək üçün saza üz tutur və çox hallarda işin yaxşılıqla başa çatdırılması üçün aşıq rolunda çıxış edir. Təhlil olunan dastanda Koroğlunun döyüş məharəti və qabiliyyətinin hiberbolizasiyası yenə davam edir: O, almaya sancılmış üzükdən qırx ox atır, oxların hamısı bircə-bircə üzüyün halğasından keçir, lakin bu çətin inanılası fakt bizi əmin edir ki, Dəmirçioğlu qorxmaz və sarsılmazdır. Qısası, çətin inanılası cizgi reallıq və gerçəkliyi tanış etməkdir. Başqa cür desək, hiperbolizasiyanın məqsədi hələ Koroğlunun şan-şöhrətini artırmaqdır, lakin bu şan-şöhrətləndirmə ilə ikinci qəhrəman Dəmirçioğlunun qorxmaz təbiətinin büruzə verilməsi baş verir. Bu dastanda güclü pəhləvanın sadiqliyi və mərdliyi, onun düşmənə qarşı mətinliyi, lakin qadına qarşı bir növ çəkingən münasibəti təsvir olunur. Maraqlıdır ki, Telli xanımın döyüş qabiliyyəti və məharəti bizə döyüş zamanı oğuz igidlərindən geri qalmayan qəhrəman xanımların obrazını xatırladır, bu da "Dədə Qorqud"da aydın şəkildə əks olunmuşdur. Sonra Koroğlunun dəlisi sanki oğuz igidi kimi döyüşdə qadının həmiştirakını özünə ar bilir. Eləcə də, bir növ onu qorxudan və məğlubiyyətdən çəkindirən qadının xəbərdarlığını nəzərə almır. Həmçinin diqqətə layiq haldır ki, təhlil olunan dastanda xeyir və şərin xəbərvericisi kimi yuxunun rəmzi əhəmiyyəti və funksiyası verilib, bir də elə burada Telli xanımın necə yaylığını başından açması və Koroğlunun ayağı altına atması, qardaşının bağışlanılmasını xahiş etməsi nəql olunub. Bu hərəkət döyüşən pəhləvanlar arasında barışığın olmasını istəyən gürcü qadınının hərəkətini bizə xatırladır. Və bizi düşündürür ki, bu ənənə ümum Qafqaz xarakterini daşıyır.

*(davamı gələn sayda)*

Gürcü dilindən tərcümə edən:
**Mirzə MƏMMƏDOĞLU**

# NİDERLAND – PƏRDƏ ARXASINDAKI GERÇƏKLƏR
## HƏYAT DƏRSLƏRİ
### 32. NİDERLANDDA KORONAVİRUSUN ZÜHURUNDAN SONRA BAŞ VERƏNLƏR



*(əvvəli ötən sayda)*

Niderland xəstəliklərə münasibətində və onların müalicəsində ən orijinal yöntəmlərdən istifadə edən bir Avropa ölkəsidir. Burada hər asqırana, hər öskürənə iynə-dərman yazmaq, uzun-uzadı müalicə kursu müəyyən etmək kimi bir ənənə yoxdur. Niderland səhiyyəsi xəstənin təbii şəkildə müalicə olunmasına, xəstəliyin kənardan müdaxilə yolu ilə deyil, xəstənin xəstəliyə öz daxili enerjisi vasitəsilə qalib gəlməsi qaydasına üstünlük verir. Bir sözlə, bu ölkənin tibbi modeli bizim gördüklərimizlə müqayisədə qeyri-adidir. Burada xəstənin antibiotiklər vasitəsilə xəstəliyə müqavimət göstərməsi qaydası mövcud deyil. Ölkə ərazisində apteklərin sayca az olduğunu istənilən əcnəbi dərhal sezə bilər. Marketlərin kiçik bir bölümündə reseptsiz satılan dərmanların hamısı ölkənin səhiyyə təşkilatının tövsiyə etdiyi dərmanlardır və demək olar ki, insan sağlamlığına zərər vuracaq hər hansı bir tərkibə malik deyil.

Ölkə əhalisi arasında yaşlıların xüsusi payının çox olmasının bir səbəbi həyat səviyyəsinin yüksəkliyindədirsə, digər səbəbi səhiyyənin yüksək şəkildə qurulmasındadır.

Mən bu qeydlərimi koronavirusun tüğyan etdiyi günlərdə yazıram. Artıq bunun bir zarafat, üstündən ötəri keçiləsi bir şey olmadığı ortada olan günləri deyirəm. O günləri ki, artıq bu fəlakəti bir qulağımızdan alıb, o biri qulağımızdan ötürmək dönəmini arxada qoymuşduq. Yeni tip koronavirus (COVID-19) təkcə yüksək beynəlxalq dairələrin, dünyanın başbilənlərinin deyil, həm də sıravi insanlarının beyinlərində rəsmiyyət qazanmışdı.

Koronavirusun dünyanı təşvişə saldığı, əksər dövlətlərin vətəndaşları az qala zorla evlərə doldurduğu bir zamanda Niderland özünün adi, gündəlik həyatını davam etdirirdi. Bəzi iş yerlərinin qapadılmasına baxmayaraq, həyat öz axarı ilə gedirdi. Bunu həyət-bacada oynayan uşaqların qışqırtısından, bir-birilə məsafə saxlayaraq söhbət edən adamların hərəkətlərindən, şütüyən maşınların səsindən də hiss etmək olurdu. Niderlandda təşvişdən, həyəcandan, qorxudan əsər-əlamət gözə dəymirdi. Əhali bu fəlakətə şimal soyuqqanlılığımı bəsləyirdi? Ya burada başqa bir anlaşılmazlıqmı var idi? Bəlkə Niderland hökuməti bu virusa başdansovdu münasibət bəsləyirdi? Və ya bu virusun bir oyun, böyük güclərin apardığı bir siyasət olmasını bilmələrimi Niderland adamlarını bu cür davranışa sövq edirdi? Mənim qafamda bu cür cavabsız suallar yaranırdı. Bir mənimmi? Mən hər fürsətdə bu suallara cavab axtarırdım. Amma Niderland hökumətinin bir cavabı var idi: əhali virusa kollektiv müqavimət göstərməli, kollektiv immunitet qazanmaq yolu ilə bu bəladan xilas olmalıdır. Xəstələrin bir çoxunun ev şəraitində müalicə olunması da məqbul sayılır. Başqa heç nə. Nə bir təlaş, nə bir qorxu. Qorxunun əcələ faydasının olmaması həqiqəti burada öz təsdiqini bu şəkildə tapmışdı.

Əslində hökumət təhlükənin miqyasını anlayırdı. Müvafiq tədbirlər də görülürdü. İnsanların daha çox toplaşdığı ehtimal olunan müəssisələr, məsələn, məktəblər, restoranlar və s. qapadılır, hər yerdə təhlükəni önləmək üçün dezinfeksiya işləri aparılırdı. Əhalini virusdan qorunmaq qaydaları ilə tanış edən məlumatlara hər addımda rast gəlinirdi. Böyük supermarketlərə alıcıların girişinə məhdudiyyət tətbiq olunmuşdu. Alıcıların mağazalara alış-veriş arabaları ilə girməsi mütləq tələb idi. Müştəri alış-verişini bitirib, arabanı boşaltdıqdan sonra mağazanın işçilərindən biri onun tutacağını xüsusi dezinfeksiyaedici spreylə silib təmizləyir. Yalnız bundan sonra növbəti müştərinin ondan istifadə etməsinə icazə verilirdi. Bu da insanların bir-birinə yaxınlaşmasını önləyən tədbirlərdəndir. Alıcı ilə kassa arasında qoruyucu şəffaf şüşə lövhələrin quraşdırılması insanların təmasını minimuma endirmək məqsədi daşıyırdı. Ticarət məkanlarının girişində qoyulmuş dezinfeksiyaedici məhlullardan və əl kağızlarından müştərilərin istifadə etməsinə şərait yaradılıb. Ölkədə koronovirusun olmasını xatırladan bu yöntəmlərdən savayı gözə dəyəcək nəsə yoxdur. Başqa bir şey hiss edilmir. Görülən tədbirlər də bu qədər. Camaat işində-gücündə, yeni tip koronavirus səbəbindən yaranmış vaxt bolluğunu öz şəxsi rahatlığı üçün istifadə etməkdədir.

Əhali arasında tibii maskadan, qoruyucu digər vasitələrdən istifadə hallarına da rast gəlinmir. Yalnız ticarət müəssisələrində satıcıların əlcəklə işləməsinə təsadüf olunur. Bütün ölkə miqiyasında sanki "heç nə yoxdur", "koronavirus öldürücü olsa da, dəhşətli deyil" abu-havası hökm sürür.

Bu virusun yayılması səbəbi ilə fəaliyyətini dayandırmış və ya məhdudlaşdırmış, digər ölkələrlə əlaqələrin olmaması ucbatından işləyə, qazanc əldə edə bilməyən kiçik şirkətlərə dövlətin maliyyə yardımı qısa müddətdə hesablarına yüklənir. Bu əməliyyatdan çox zaman şirkətlərin xəbəri belə olmur. Hesabını yoxlayan şirkət sahibi hesabına 1500 avro pul köçürüldüyünü görür, sanki belə də olmalıdır deyərək, buna o qədər də əhəmiyyət vermir. Dövlət bu maliyyə yardımı ilə vətəndaşının yanında olduğunu və özünün sosial mahiyyətini bir daha sübut edir.

Kütləvi tədbirlərə də ara verilib. Hər il ölkə miqiyasında təntənə ilə qeyd edilən Kral Günü (Koninsdag) bu il məhdud çərçivədə keçirildi. Aprelin 27-də bəzi evlərin pəncərə və eyvanlarından vətəndaşların öz təşəbbüsləri ilə asdıqları milli bayraqların və narıncı lentlərin dalğalanması belə bir bayramın varlığını xatırladırdı. Koronavirus milli və dini bayramlara öz təsirini belə göstərmiş oldu. Bundan əvvəl qeyd edilən xristian katoliklərin Pasxa bayramı da bu cür sönük keçmişdi.

Bu sətirləri bilgisayara yazdığım mayın 30-da bir gün qabağın məlumatlarına görə, Niderland Krallığında koronavirusa yoluxanların sayı 46 257, virusdan ölənlərin sayı 5 951, müalicədə olan xəstələrin sayı isə 40 056 nəfər təşkil edirdi. Koronavirusun martın 11-dən bu yana ölkə üzrə statistikası belədir. Bir sıra ölkələrlə müqayisədə bu rəqəmlər nə qədər böyük görünsə də, hökumətin gördüyü tədbirlər yuxarıda sadaladıqlarımla məhdudlaşır.

P.S.

Yeni tip koronavirusun gündəmdə olduğu may ayında qonşu Belçikaya səfərimiz zamanı Niderlanddan fərqli görüntülərə rast gəldik. Bu fərqlilik özünü elə Niderlandla Belçika sərhədində göstərdi. Sərhəddə quraşdırılmış nəzarət-buraxılış məntəqəsində ağız-burunlarına tibbi maska taxmış şəxslər Belçikaya daxil olmaq istəyənlərdən xüsusi icazə tələb edirdilər. Belə icazəsi olmayanlar geri qaytarılırdı. Bizim də icazəmiz olmadığına görə geri qayıtmalı olduq və uzun axtarışdan sonra altenativ yolla Belçikanın Gent şəhərinə gəlib çıxa bildik. Daha sonra getdiyimiz paytaxt Brüsselin küçələrində insanların çoxluğu diqqəti cəlb edirdi. Küçədəkilərin hamısı, demək olar ki, maskada idi. Niderlandın istənilən şəhəri ilə müqayisədə bu mənzərə bizdə qorxu və həyəcan yaradırdı. Bir qədər sonra getdiyimiz Antiverpendə isə maska taxan insanların sayca az olduğu ilk baxışda nəzərə çarpırdı.

*(son)*

**Afiq MUXTAROĞLU**

Niderland

İCTİMAİ QƏZET ❀ yeniyolqazeti@gmail.com ❀ "იენი იოლი" საზოგადოებრივი გაზეთი ❀ HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

30 Aprel
2023-CÜ İL
№ 008 (179)

# Yeni YOL

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.

# MÜƏLLİMLƏR EVİ 14 FƏNN ÜZRƏ ƏN YAXŞI MÜƏLLİM MÜSABİQƏSİ ELAN EDİB

Müəllimlərin Peşəkar İnkişafı üzrə Milli Mərkəz müəllim peşəsinin populyarlaşdırılması, prestijin artırılması, uğurlu pedaqoji təcrübəni müəyyən etmək və ictimaiyyətə ən yaxşı müəllimləri təqdim etmək üçün hər il müsabiqə keçirir.

**Bu il də müxtəlif fənlər üzrə 2023-cü ilin ən yaxşı müəllimlərini müəyyən etmək üçün müsabiqələr elan olunub:**

- 2023-cü ilin ən yaxşı fizika müəllimi;
- 2023-cü ilin ən yaxşı riyaziyyat müəllimi;
- 2023-cü ilin ən yaxşı kimya müəllimi;
- 2023-cü ilin ən yaxşı biologiya müəllimi;
- 2023-cü ilin ən yaxşı təbiətşünaslıq müəllimi;
- 2023-cü ilin ən yaxşı tarix müəllimi;
- 2023-cü ilin ən yaxşı coğrafiya müəllimi;
- 2023-cü ilin ən yaxşı gürcü dili və ədəbiyyatı müəllimi;
- 2023-cü ilin ən yaxşı gürcü dili ikinci dil kimi fənni üzrə müəllim;
- 2023-cü ilin ən yaxşı ingilis dili müəllimi;
- 2023-cü ilin ən yaxşı fransız dili müəllimi;
- 2023-cü ilin ən yaxşı alman dili müəllimi;
- 2023-cü ilin ən yaxşı rus dili müəllimi;
- 2023-cü ilin ən yaxşı italyan dili müəllimi.

Hər bir müsabiqə çərçivəsində bir qalib seçiləcək.

Müsabiqələrdə Gürcüstanın ictimai və özəl məktəblərinin baş, aparıcı, mentor və ən azı 3 illik müəllimlik təcrübəsi olan müəllimləri iştirak edə bilərlər.

Müsabiqədə iştirak etmək könüllüdür.

**Müsabiqəyə namizəd təqdim edə bilər:**

a) Mərkəz tərəfindən nəzərdə tutulmuş formanı dolduran müəllim;

b) Pedaqoji/Qəyyumlar Şurasının qərarı ilə məktəb rəhbərliyi;

c) Yerli bələdiyyə və ya qeyri-hökumət təşkilatı;

ç) Təhsil-resurs mərkəzləri;

d) Peşə ittifaqları.

"b-d" bəndi ilə nəzərdə tutulmuş şəxslər tərəfindən Müəllimlərin Peşəkar İnkişafı üzrə Milli Mərkəzə müəllimin namizədliyi təqdim edildikdən sonra mərkəz müəllimə əlavə nəzərdə tutulmuş formanı doldurması üçün məktubla müraciət edir. Forma mərkəzin veb-səhifəsində qeyd olunmuş link vasitəsi ilə mərkəz tərəfindən təyin edilmiş vaxt ərzində doldurulmalıdır.

**Qeydiyyat müddəti: 2023-cü il 18 apreldən – 7 maya qədər.**

**Qalib olmaq üçün aşağıdakı kriterilər vacibdir:**

a) Fənn və onun tədrisi haqqında dərin, əsaslı bilgi. Bu bilgi yazılı (müəllimin peşə qovluğunda olan sənədlərin yoxlanılması) və şifahi (maksimum 3 dəqiqəlik video qeyd) şəkildə təqdim edilmiş "Mənim pedaqoji kredom"la müəyyən olunacaq və "Mənim pedaqoji kredom"un qiymətləndirmə rubrikası ilə qiymətləndiriləcək. Eləcə də müəllim tərəfindən keçirilən dərslərdə iştirak etməklə (dərs "Müəllimin qiymətləndirilməsi üçün standart vasitələrin təsdiqlənməsi haqqında" mərkəz direktoru funksiyalarını müvəqqəti yerinə yetirən şəxsin 2019-cu ilin 12 iyuna olan N124 sərəncamı ilə təsdiqlənmiş, müəllimin qiymətləndirilməsinin standartlaşdırılmış vasitəsinə əsasən qiymətləndirilir) qiymətləndiriləcək.

b) Yaradıcılıq bacarıqlarının nümayiş etdirilməsi. Müəllim tərəfindən yayımlanmış materiallarla (məktublar, metodik və tədris ədəbiyyatı, bloq) müəyyən olunacaq;

c) Şagirdlərin təhsil nəticələrinin dinamikası. Şagirdlərin davranışı, akademik iştirakının yaxşılaşdırılmasını təsvir edən materialla təsdiq olunur;

ç) Təhsilin innovativ və effektiv yanaşmalarından istifadə etmək. Dərsdə iştirak etməklə və başqa dərslərin planları ilə tanışlıqla təsdiq olunur;

d) Ümumbəşəri dəyərlərin öyrənilməsi. Etnik, mədəni, dini fərqli olanlara tolerant münasibətlərlə müəyyən olunur;

e) İctimai tanınma və vətəndaş fəallığı. Müəllimin məktəb və ya ictimai həyatda rolu və iştirakı, onun reputasiyası, icma, yerli əhali, həmkarlar, məktəb rəhbərliyi, geniş ictimaiyyət tərəfindən tanınması ilə müəyyən olunur (məsələn: ictimai işlərdə iştirak etmək, məktəb və icma üçün göstərilmiş xidmət və s.).

ə) Peşə inkişafı və təcrübəni bölüşmək. Müəllimin özünə, eləcə də həmkarlarının peşə inkişafına göstərdiyi qayğı ilə müəyyən olunur (peşə inkişafının müxtəlif fəallıqlarına qoşulmaq; pedaqoji təcrübənin araşdırılması; yeni və gələcək müəllimlərə məsləhət, mentorinq və başqa vasitələrlə dəstək olmaq; peşənin populyarlaşdırılması istiqamətində başqa növ fəaliyyətlər).

Müsabiqə aplikasiyasında bütün qrafaların doldurulması məcburidir. Əks halda iştirakçı müsabiqədən uzaqlaşdırılacaq.

**Müsabiqə üçün videoda danışmaq lazımdır (maksimum 3 dəqiqə):**

- Pedaqoq olaraq sizin üçün mühüm prinsiplər və dəyərlər haqqında;
- Bu prinsiplər və dəyərlərin sizin pedaqoji təcrübənizdə öz əksini necə tapması barədə (misal gətirin).

Video qeydi bu imeylə göndərmək lazımdır: **saukete-somastsavlebeli@gmail.com**

*Mənbə: etaloni.ge*

## TBİLİSİDƏ İSA MUĞANNANIN GÜRCÜ DİLİNDƏ KİTABININ TƏQDİMATI KEÇİRİLİB



Azərbaycanın Xalq yazıçısı İsa Muğannanın "Ömür karvanı" adlı əsərlər toplusu Gürcüstanda gürcü dilində işıq üzü görüb.

Azərbaycan Dövlət Tərcümə Mərkəzinin beynəlxalq nəşr layihələri çərçivəsində ərsəyə gətirilmiş kitab Gürcüstan Yazıçılar Birliyinin "Merani" nəşriyyatında çap edilib.

Yazıçının "Saz", "Quru budaq", "Şəppəli", "İllər və damcılar", "Aynalı Əhəd", "İki xırman", "Zəhər" kimi məşhur povest və hekayələri daxil edilmiş kitabın gürcü dilinə tərcümə müəllifi tanınmış yazıçı-tərcüməçi, Gürcüstan Dövlət mükafatı laureatı İmir Məmmədli, redaktoru Gürcüstan Yazıçılar Birliyinin sədri, tanınmış gürcü şairi Makvala Qonaşvilidir.

Kitabın təqdimatı aprelin 27-si Tbilisi meriyasının dəstəyi ilə Gürcüstan Yazıçılar Birliyində keçirilib. "Dostluq meridianı" adlı tədbirdə Azərbaycanın tanınmış yazıçıları Afaq Məsud və İmir Məmmədli də iştirak ediblər.

## GÜRCÜSTAN İQTİSADİYYATI 7 FAİZ ARTIB



Bu il Gürcüstan iqtisadiyyatı 7 faiz artıb. Ölkənin turizm və ticarət sahələrində nəzərəçarpacaq yüksək rəqəmlər qeydə alınıb. Bu sözləri Gürcüstanın Baş naziri İrakli Qaribaşvili hökumətin iclasından sonra bildirib.

Onun sözlərinə görə, cari ilin birinci rübündə Gürcüstana 1 milyon 200 mindən çox beynəlxalq səyahətçi səfər edib, bu da çox müsbət göstəricidir.

Ticarət sahəsində də artım mövcuddur. Yanvar-mart aylarında ixracatda 25 faiz artım qeydə alınıb və bu göstərici 1 milyard 641 milyon dollar təşkil edib. Baş nazir bunun ölkənin xarici ticarətində rekord rəqəm olduğunu bildirib.

## SƏRHƏD NƏZARƏTİNİ GÜCLƏNDİRMƏK ÜÇÜN YÜKSƏK TEXNOLOJİ AVADANLIQLARDAN İSTİFADƏ OLUNACAQ



Amerika Birləşmiş Ştatlarının İxrac Nəzarəti və Sərhəd Təhlükəsizliyi Layihəsi (EXBS) çərçivəsində Gürcüstan Maliyyə Nazirliyinin Gəlirlər Xidmətinə 3 ədəd rentgen baqaj yoxlama skaneri (RAPISCAN 628XR) təhvil verilib. Bu barədə Gürcüstan Maliyyə Nazirliyinin Gəlirlər Xidmətindən məlumat verilib.

Bildirilib ki, ümumi dəyəri 300 min ABŞ dolları olan skanerlər Batumi və Kutaisi hava limanları, həmçinin Kazbeqi gömrük keçid məntəqəsi üçün nəzərdə tutulub. Batumi Hava Limanı gömrük-keçid məntəqəsində ABŞ səfiri Kelli Deqnan, Gəlirlər Xidmətinin Gömrük İdarəsinin rəisi Zurab Siçinava və agentliyin digər məsul şəxsləri sərnişinlər tərəfindən hava yolu ilə gətirilən və ya çıxarılan yüklərin skan edilməsi prosesini izləyiblər.

Qeyd edək ki, yoxlama rentgen skanerləri Gəlirlər Xidmətinin Gömrük İdarəsinin səmərəli fəaliyyəti üçün ən yüksək texnoloji avadanlıqdır. Müasir sistem sərnişinlərin əl yüklərinin və baqajının tez, təhlükəsiz və qüsursuz yoxlamaq üçün (skan etmək) üçün unikal sistemdir.

Təsisçi:
"Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatı"

Redaktor: Azər MUSAOĞLU
Yayım direktoru: Hacı BƏKİROĞLU
Qrafik dizayn: Elsevər ƏHMƏDOV

ÜNVAN: Rustavi şəh., Şartava küç. 12 b
TEL: (+995) 555 96 18 68
599 54 12 92
İMEYL: yeniyolqazeti@gmail.com

Yazılar yalnız elektron variantda qəbul edilir və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet hələlik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.